

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 21 (23.433)

4 fevral 2020-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Fevralın 3-də "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfrans keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak edib.

Dövlətimizin başçısı konfransda giriş və yekun nitqi söyləyib.

* * *

Həmin gün Prezident İlham Əliyev Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə və uzunmüddətli səmərəli ictimai-siyasi fəaliyyətinə görə Polad Bülbüloğluna "Heydər Əliyev" ordenini təqdim edib.

Prezident İlham Əliyev Polad Bülbüloğlunu yubileyi münasibətilə təbrik edərək deyib:

– Sizə baxanda adam heç deyə bilməz ki, 75 yaşına çatmısınız. Həmişə cavan, həmişə gümrah, enerjili fəaliyyət göstərirsiniz. Siz böyük sənətkar, böyük bəstəkar, böyük ifaçısınız. Siz Azərbaycan mədəniyyətinin inkişafına böyük töhfə vermisiniz. Deyə bilərəm ki, Azərbaycan musiqi mədəniyyətində özünəməxsus və təkrarolunmaz iz buraxmısınız. Nəinki Azərbaycan miqyasında, hesab edirəm ki, dünya miqyasında siz ən görkəmli bəstəkarlardan birisiniz.

Polad Bülbüloğlu ona təqdim olunan böyük mükafat üçün dövlətimizin başçısına dərin minnətdarlığını bildirib.




## Naxçıvan Muxtar Respublikası Radio-Televiziya Ötürücü Mərkəzinin publik hüquqi şəxsə çevrilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin Radio-Televiziya Ötürücü Mərkəzi publik hüquqi şəxsə çevrilsin.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

2.1. Publik hüquqi şəxsin nizamnaməsini, işçilərinin say həddini və strukturunu təsdiq etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 1 fevral 2020-ci il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilmişdir





Fevralın 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: Ölkəmizdə ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan idman siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Artıq bu gün Azərbaycan dünya miqyasında güclü idman dövləti kimi tanınır. İldən-ilə idman nəticələrimiz, uğurlarımız artmaqda davam edir. Formalaşan güclü idman infrastrukturu ölkəmizi idman ölkəsinə və beynəlxalq yarışların keçirildiyi mərkəzə çevirir. Ölkə Prezidenti cənab İlham Əliyev idmançılarla görüşündə demişdir: ***"İdman hər bir ölkənin gücünü göstərir. İdmana olan diqqət və qayğı hər bir ölkənin dövlət siyasəti olmalıdır. Azərbaycanda bu belədir. Uğurlarımızın təməlində məhz dövlət siyasəti dayanır. Məhz dövlət siyasəti, idmançılarımızın peşəkarlığı, mütəxəssislərin və federasiyaların birgə fəaliyyəti bu uğurları şərtləndirir".***

Ali Məclisin Sədri demişdir: Bədən tərbiyəsi və idman insanın hərtərəfli inkişafını, sağlam həyat tərzini təmin edir, əhalinin əmək qabiliyyətini yüksəldir, uzunömürlülüyü artırır, zərərli vərdişlərin qarşısını almaqla gəncləri fiziki və mənəvi cəhətdən Vətənin müdafiəsinə hazırlayır. Naxçıvan Muxtar Respublikasında əhalinin sağlam həyat tərzinin, xüsusən də böyüməkdə olan gənc nəslin hərtərəfli inkişafının təmin edilməsində bədən tərbiyəsi və idmanın roluna böyük əhəmiyyət verilir. Yaradılan şərait idmanın kütləviliyinə, muxtar respublikamızda beynəlxalq və ölkə səviyyəli yarışların keçirilməsinə şərait yaradır.

Qeyd olunmuşdur ki, hazırda muxtar respublikada 58 idman müəssisəsi və 886 idman obyekti fəaliyyət göstərir. İdmanın tədrisi və gənclərin fiziki hazırlığı ilə 812 müəllim məşğul olur. Uşaq və gənclərin idmana cəlbi istiqamətində həyata keçirilən kompleks tədbirlər nəticəsində muxtar respublikada idman tədbirləri beynəlxalq xarakter alır. Müasir idman infrastrukturu və bu sahəyə göstərilən qayğının nəticəsidir ki, 2019-cu ildə muxtar respublikada 1 ölkə və 5 beynəlxalq səviyyəli idman tədbiri keçirilmişdir. Muxtar respublika idmançıları 2019-cu il ərzində idmanın müxtəlif növləri üzrə nailiyyətlər əldə etmiş, dünya, Avropa və beynəlxalq turnirlərdə 190, Azərbaycan çempionatlarında 179 medal qazanmışlar. 2019-cu ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə 18 yaşadək olan idmançılardan 1-i idman sahəsində nailiyyətlərinə görə Gənc istedadların xüsusi təqaüdünə layiq görülmüş və adı "Qızıl kitab"a yazılmışdır.

Ali Məclisin Sədri demişdir ki, qazanılan nailiyyətlərlə kifayətlənməməli, muxtar respublikada idman sahəsində həyata keçirilən tədbirlər 2020-ci ildə də davam etdirilməlidir. Gənclər və İdman Nazirliyi və idman federasiyaları muxtar respublikada idman növlərinin inkişaf etdirilməsi, uşaq və gənclərin idmana cəlbi, idman yarışlarının kütləviliyinin artırılması sahəsində fəaliyyətlərini gücləndirməli, idmanın müxtəlif növləri üzrə Naxçıvan Muxtar Respublikası birinciliklərinin keçirilməsi davam etdirilməlidir. İdman yarışları, xüsusən də ölkə və beynəlxalq səviyyəli turnirlər gənc idmançıların təcrübəsinin artırılmasında mühüm rol oynayır. Gənclər və İdman Nazirliyi, idman federasiyaları muxtar respublikada ölkə və beynəlxalq səviyyəli idman yarışlarının keçirilməsinə diqqəti artırmalı, beynəlxalq turnirlərdə idmançıların iştirakı təmin edilməlidir.

Tapşırılmışdır ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsi Gənclər və İdman Nazirliyi ilə birgə muxtar respublikada idmanın davamlı inkişafını təmin etmək məqsədilə "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nı hazırlayıb təqdim etsinlər. Həmçinin Gənclər və İdman Nazirliyi Şahmat Federasiyası ilə birgə oktyabr ayında Naxçıvan şəhərində keçiriləcək 16 yaşadək şahmatçılar arasında Ümumdünya Şahmat Olimpiadasına hazırlıq işləri görməli, Olimpiadada muxtar respublika şahmatçılarının iştirakını təmin etməlidir. Uşaq və gənclərin idmana cəlbinin kütləviliyini artırmaq məqsədilə Gənclər və İdman Nazirliyi idman federasiyaları ilə birgə 2020-ci ildə "İdman festivalı"nın keçirilməsini təmin etməlidir. İdman federasiyaları icra hakimiyyətləri ilə birlikdə bölmələrin fəaliyyətlərini gücləndirməli, uşaq və gənclərin bölmələrə cəlbi ilə bağlı iş aparmalı, federasiyadaxili və rayonlararası idman yarışları keçirməlidirlər.

Ali Məclisin Sədri demişdir: Peşəkar məşqçilərin hazırlanması və idmançılara məşğələlərin keçirilməsi 2020-ci ildə də Gənclər və İdman Nazirliyi, eləcə də idman federasiyaları tərəfindən davam etdirilməli, muxtar respublikaya təcrübəli məşqçilər dəvət olunmalı, məşqçilərə təlimlərin, idmançılara nümunəvi dərslərin keçirilməsi təmin edilməlidir. Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsində istifadəyə veriləcək Xizək Mərkəzində muxtar respublikada xizəksürmə idman növünün inkişafı üçün yeni imkanlar yaradılır. Gənclər və İdman Nazirliyi idmanın bu növünə marağı artırmalı, gənclərlə fəal iş aparmalıdır. Gənclər və İdman Nazirliyi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birlikdə məhdud fiziki imkanlı gənclərin muxtar respublikanın idman həyatına daha fəal inteqrasiyasını davam etdirməli, bədən tərbiyəsi və idmanın bu kateqoriyadan olan şəxslərin reabilitasiyasında əhəmiyyəti ilə bağlı maarifləndirici tədbirləri həyata keçirməlidir. İdman federasiyaları federasiya daxilində istedadlı gənclərin məlumat bankına hər yarışdan sonra məlumatların

*Ardı 2-ci səhifədə*

yerləşdirilməsini nəzarətdə saxlamalı, Gənclər və İdman Nazirliyi internet saytında yerləşdirilən elektron məlumat bankının mütəmadi yenilənməsini təmin etməlidir.

Gənclər və İdman Nazirliyi ali təhsil müəssisələrinin hamiliyə götürdüyü ixtisaslarında gənclərlə işi davam etdirməli, istedadlı gənclərin muxtar respublikanın idman həyatında aktiv iştirakı təmin edilməlidir. Aid təşkilatlar yüksək nailiyyətləri ilə seçilən məşqçi-müəllim və idmançıların əməyini qiymətləndirməli, onların sosial problemlərinin həlli üçün zəruri tədbirləri görməlidirlər. Uşaq və gənclərin sağlamlığını qorumaq və möhkəmləndirmək, onlarda fiziki sağlam həyat tərzini formalaşdırmaq bütün təhsil müəssisələrinin əsas vəzifələrindəndir. Təhsil Nazirliyi böyüməkdə olan nəslin fiziki inkişafına, onların sağlamlığına qayğı ilə yanaşmalıdır. Ümumtəhsil məktəblərində fiziki tərbiyə dərslərinin tədrisinə nəzarət edilməli, uşaq-gənclər şahmat və idman məktəblərinin fəaliyyəti gücləndirilməlidir. Təhsil Nazirliyi idman federasiyaları ilə birlikdə təhsil müəssisələrində idman yarışları və spartakiadalar təşkil etməlidir. Muxtar respublikada idman sahəsi üzrə ali təhsilli kadr hazırlığı həyata keçirən Naxçıvan Dövlət Universiteti idmanın müxtəlif növləri üzrə məşqçi-müəllimlərin peşəkarlıq səviyyəsinin artırılmasını diqqətdə saxlamalıdır.



Ali Məclisin Sədri demişdir: Muxtar respublikada yaradılan idman infrastrukturunun və qurğularının qorunması, onlardan səmərəli istifadə üçün Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, idman federasiyaları, şəhər və rayon icra hakimiyyətləri birgə fəaliyyət göstərməlidirlər. Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi və Gənclər Fondu yeniyetmə və gənclər arasında idman növlərinin təbliği ilə bağlı maarifləndirici tədbirlər görməli, tanıtım bukletləri hazırlamalı, bu sahədə internet saytlarında və sosial şəbəkələrdə təbliğat işləri aparmalıdırlar. Muxtar respublikanın kütləvi informasiya vasitələri idmanla bağlı teleradio və qəzet materialları hazırlamalı, cəmiyyətdə bədən tərbiyəsi və idmanın həyat tərzinə çevrilməsi üçün təbliğat və təşviqat işini gücləndirməlidirlər. Bədən tərbiyəsi və idman dövlətin sağlam nəslin yetişdirilməsinə yönəlmiş sosial fəaliyyət sahələrindən biridir. Ona görə də aid təşkilatlar üzərlərinə düşən vəzifələri yerinə yetirməli, bu sahənin inkişafı üçün sistemli tədbirlər həyata keçirməlidirlər.

Ali Məclisin Sədri qeyd olunan vəzifələrin icrasında müşavirə iştirakçılarına uğurlar arzulamış, 2 fevral – Gənclər Günü münasibətilə muxtar respublika gənclərini təbrik etmişdir.

Müşavirədə Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov çıxış edərək demişdir ki, bu gün muxtar respublikada müasir idman infrastrukturu formalaşdırılmış, uşaq və gənclərin idmanla məşğul olmasına, onların müxtəlif səviyyəli çempionat, turnir və yarışlarda iştirak etməsinə hərtərəfli şərait yaradılmışdır. 2019-cu ildə muxtar respublikada beynəlxalq turnirlər, Azərbaycan çempionatları keçirilmiş, eləcə də idmançılarımızın Azərbaycanda və dünyanın müxtəlif ölkələrində keçirilən yarışlarda iştirakı təmin edilmişdir. Yaradılan şəraitin nəticəsidir ki, muxtar respublikada stolüstü tennis, üzgüçülük, həndbol, fitnes, aerobika və Şərur rayonunda fəaliyyət göstərən ağır atletika bölmələrində, həmçinin digər idman növləri üzrə qızların sayı artmaqdadır. Federasiyaların fəaliyyəti barədə məlumat verən Azad Cabbarov demişdir ki, Hava və Ekstremal İdman Növləri, Voleybol və Basketbol federasiyaları il ərzində idmançıların Azərbaycan və beynəlxalq səviyyəli yarışlarda iştirakını təmin etməmiş, keçirilən muxtar respublika səviyyəli yarışlarda keyfiyyət və təşkilatçılıq aşağı olmuşdur. Hər üç federasiyada peşəkar məşqçi-müəllimlərin və idmançıların hazırlanması işi aparılmamışdır. Peşəkar məşqçi-müəllim və idmançıların olmaması bu federasiyaların muxtar respublikadan kənarda keçirilən yarışlarda iştirak etməməsinə səbəb olmuşdur.

Ali Məclisin Sədri tapşırmışdır ki, Gənclər və İdman Nazirliyi Hava və Ekstremal İdman Növləri, Voleybol və Basketbol federasiyaları ilə birlikdə Tədbirlər Planı hazırlasın, nöqsanlar aradan qaldırılsın və federasiyaların fəaliyyətində dönüş yaradılsın.

Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının məşqçi-müəllimi Əsgər Abdullayev çıxış edərək demişdir ki, muxtar respublikada futbolun inkişafı diqqətdə saxlanılır. Bu idman növünün inkişafı üçün hər cür şərait yaradılıb. Ona görə də yeniyetmə və gənclərin futbola marağını artırmağı, istedadlı futbolçuları üzə çıxarmağı, onlara bacarıqlarımızı öyrətməyi qarşıya məqsəd qoymuşuq. Muxtar respublikada məşqçi-müəllimlər üçün yaradılan şərait, sosial təminat imkan verir ki, biz öz vaxtımızı idmançıların yetişməsinə sərf edək. Təbii ki, hər bir məşqçi-müəllimin uğuru onun idmançılarının qazandığı nailiyyətlərlə ölçülür. Çalışacağıq ki, muxtar respublikada digər idman növləri üzrə qazanılan uğurlar futbol sahəsində də əldə edilsin. Əsgər Abdullayev məşqçi-müəllimlərə yaradılan hərtərəfli şəraitə görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının idmançısı Sadiq Qarayev bildirmişdir ki, muxtar respublikada müasir idman infrastrukturunun yaradılması gənclərin sağlamlığının qorunmasında, onların asudə vaxtlarının səmərəli təşkilində və istedadlı gənclərin üzə çıxarılmasında mühüm rol oynayır. Olimpiadalarda, digər mötəbər yarışlarda qələbələr qazanan idmançılar böyük diqqətlə və qayğı ilə əhatə olunurlar. Mən 10 ildir, idmanın şahmat növü ilə məşğulam. Bu gün şahmatın inkişafına göstərilən qayğının, şahmatçıların fəaliyyətinin dəstəklənməsinin nəticəsidir ki, bu idman növünə gənclər və yeniyetmələr arasında maraq xeyli artmış, şahmatın kütləviliyinə nail olunmuşdur. Şahmatçıların təkcə muxtar respublikamızda keçirilən birinciliklərdə deyil, ölkəmizdə və beynəlxalq yarışlarda iştirakı üçün hər cür şərait yaradılır. Sadiq Qarayev göstərdiyi hərtərəfli qayğıya görə muxtar respublika idmançıları adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri demişdir ki, bu gün muxtar respublikada gənclərin şahmata böyük marağı vardır. Bu sahədə yaradılan şərait və federasiyanın fəaliyyətinin gücləndirilməsi bu idman növü üzrə kütləviliyi təmin etmişdir. Gənclər və İdman Nazirliyi və federasiyalar 2020-ci il üçün qarşılıqlı fəaliyyət planı təsdiq etməli, hər bir federasiya üzrə daxili və beynəlxalq yarışlar keçirilməlidir. Gənclərin idmana kütləvi cəlbinə nail olunmalı, idman maarifçiliyinə diqqət artırılmalı, Naxçıvan Dövlət Televiziyası tərəfindən idmanın təşviqi ilə bağlı videoçarxlar hazırlanmalı, istirahət parklarında idman guşələri qurulmalıdır.

Ali Məclisin Sədri müşavirədə müzakirə olunan məsələlərin idmanın kütləviliyinin təmin olunmasına töhfə verəcəyini bildirmiş, muxtar respublikada idman sahəsində qazanılan nailiyyətlərdə əməyi olanlara təşəkkür etmişdir.

Sonra Ali Məclisin Sədri 2019-cu ildə ölkə və beynəlxalq yarışlarda uğurlu nəticələrə görə 7 idmançıya və 3 məşqçi-müəllimə mükafat təqdim etmişdir.

Mükafatlandırılanlardan Şəfi Hüseynov minnətdarlıq edərək demişdir: “Bu gün bir həqiqəti etiraf etmək lazımdır ki, muxtar respublikada gənclərin idmanla kütləvi məşğul olması Ali Məclis Sədrinin bu sahəyə göstərdiyi diqqətin nəticəsidir. Artıq oğlanlarla yanaşı, qızlar da idmana böyük maraq göstərirlər. Biz idmançıların üzərinə düşən vəzifə də yaradılan şəraitdən səmərəli istifadə edərək nailiyyətlərimizi daha da artırmaqdır”.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinə deputatlığa namizəd Seymur Talıbovun seçicilərlə görüşü olub

***Fevralın 3-də 25 saylı Naxçıvan Şəhər Seçki Dairəsindən Naxçıvan Muxtar Respublikası Ali Məclisinə deputatlığa namizəd Seymur Talıbovun seçicilərlə görüşü olub.***

Naxçıvan Şəhər Əliabad qəsəbəsində bu münasibətlə keçirilən görüşü Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi Anar İbrahimov açaraq bildirib ki, V çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisində Yeni Azərbaycan Partiyası 41 deputatla təmsil olunub. Qarşıdan gələn seçkilərdə də partiyanın 45 dairənin hamısında namizədləri qeydə alınıb. 25 saylı Naxçıvan Şəhər Seçki Dairəsindən Yeni Azərbaycan Partiyası hazırkı deputat, alim və gənc siyasətçi Seymur Talıbovun şəxsində yenidən bu mübarizəyə qoşulub. Seymur Talıbov 2003-2007-ci illərdə Bakı Dövlət Universitetinin Beynəlxalq hüquq, 2007-2010-cu illərdə Bakı Dövlət Universitetinin magistraturasında Beynəlxalq hüquq, 2009-2010-cu illərdə İngiltərədə London City Universitetinin magistraturasında Beynəlxalq siyasət üzrə təhsil alıb. 2013-cü ildə isə Böyük Britaniyanın Oksford Universitetində Said Biznes Məktəbinin Executive Education Liderlik və İdarəçilikdən məzunu olub. Seymur Talıbov 2011-ci ilin yanvar ayından Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasında müəllim, baş müəllim, 2017-ci ildən dosent, 2016-cı ildən həmin universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru vəzifəsində işləyir. 2013-cü ilin may ayında dissertasiya müdafiə edərək fəlsəfə doktoru elmi adını alıb. Seymur müəllim bir dərs vəsaiti və 20-yə yaxın elmi məqalənin müəllifidir. O, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Siyasi Şurasının üzvü, V çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatıdır. Bu gün Seymur Talıbov Şahmat Federasiyasının sədri kimi də bu idman növünün inkişafında yaxından iştirak edir.





25 saylı Naxçıvan Şəhər Seçki Dairəsindən Naxçıvan Muxtar Respublikası Ali Məclisinə deputatlığa namizəd Seymur Talıbov çıxış edərək bildirib ki, dövlətimizin həyata keçirdiyi tədbirlər və qarşıya qoyduğu vəzifələr hər bir namizədin platformasıdır. Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır. Bu partiyanın qurulması ilə müasir Azərbaycan dövlətçiliyinin təməl sütunları formalaşıb. Azərbaycan gündən-günə inkişaf edir və dünyada tanınan bir ölkəyə çevrilir. Bu gün Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası da inkişaf yolundadır. Bu inkişaf muxtar respublikanın hər bir şəhərini, kəndini və məhəlləsini əhatə edir.

Seymur Talıbov bildirib ki, təhsil onun ictimai-siyasi fəaliyyətinin əsasını təşkil edir. Muxtar respublikanın təhsil siyasəti dövlətin inkişaf strategiyasının prioritet sahəsidir. Bu gün muxtar respublikada aparılan quruculuq siyasətinin tərkib hissəsi kimi kəndlərdə məktəblərin tikilməsi və ya yenidən qurulması, onların müasir avadanlıqlarla təchiz olunması yüksəkkeyfiyyətli tədris prosesinə tam şərait yaradır. Bunun nəticəsində kadr hazırlığının vəziyyəti və əldə olunan nailiyyətlər muxtar respublikada müasir təhsil mühiti formalaşdırır və yüksək bal toplayan tələbələrin sayı ilbəil artır. Hazırda Naxçıvanda 3 ali təhsil ocağı fəaliyyət göstərir. Bu ali təhsil müəssisələrində dünya standartlarına uyğun müasir təhsil metodları əsasında yüksək səviyyəli tədris şəraiti yaradılıb. Dövlətin ardıcıl diqqət və qayğısı ilə güclənən maddi-texniki baza, beynəlxalq əməkdaşlıq və innovativ elmi mühit Naxçıvan Dövlət Universitetinin reytinq cədvəllərində birincilik qazanmasına səbəb olur. Bu universitet nüfuzlu ali təhsil ocaqları ilə birgə ortaq elm və təhsil layihələri, idman və mədəniyyət sahələri üzrə əməkdaşlıq həyata keçirir. Bunun nəticəsidir ki, hazırda Naxçıvan Dövlət Universitetində 9 ölkədən 800-dən artıq xarici tələbə təhsil alır. Universitetin məzunlarına bu gün nəinki Azərbaycanda, hətta dünyanın bir çox ölkələrində geniş karyera imkanları açılır və bu ali təhsil ocağının diplomları bütün dünyada tanınır.

Qeyd olunub ki, əhalinin firavan həyatı ölkənin iqtisadi gücündən asılıdır. Bu gün muxtar respublikamızda sosial-iqtisadi sahədə əldə olunan nailiyyətlər əhalinin sosial rifah halının yüksəldilməsinə, insan kapitalının inkişafına və dayanıqlı əmək bazarının yaranmasına şərait yaradır. Dövlətin ailə təsərrüfatlarına, mikrobiznes sahiblərinə ucuz kredit imkanları yaratması Naxçıvanda kiçik sahibkarlığın inkişafı ilə nəticələnib. Daxili bazarın qorunması, sahibkarlığın inkişafı üçün qanunvericiliyin təkmilləşdirilməsi və iqtisadi sahədə güclü infrastrukturun yaradılması muxtar respublikada iqtisadiyyatın davamlı və dayanıqlı inkişafına şərait yaradır.

Muxtar respublikada davamlı inkişaf edən sahələrdən biri də tikinti-quruculuqdur. Bu gün şəhər və rayon mərkəzləri ilə yanaşı, ən ucqar kəndlərimiz də qaz və elektrik enerjisi, həmçinin müasir rabitə xidmətləri ilə təmin edilib. Muxtar respublikamızın bütün rayonlarında kənd mərkəzlərinin, təhsil müəssisələrinin, mədəniyyət ocaqlarının, həkim ambulatoriyalarının tikilib istifadəyə verilməsi dediklərimizin əyani göstəricisidir. Artıq rayon mərkəzləri inkişafına görə şəhərlərimizdən geri qalmır. Bütün bunlar əhalinin rahatlığı, rifahı və xoşbəxt gələcəyi üçündür.

“Naxçıvan əhalisi ən çətin tarixi dövrdə müstəqillik uğrunda mübarizədə ümummilli lider Heydər Əliyevin ətrafında birləşərək Yeni Azərbaycan naminə öz xilas yolunu seçdi. Əminik ki, ulu öndər Heydər Əliyevin dövlətçilik təlimi bizi daha güclü Azərbaycan naminə sıx birləşərək həmrəy olmağa və inkişafa aparacaqdır”, – deyən Seymur Talıbov görüş üçün seçicilərə təşəkkürünü bildirib, hər kəsi fevralın 9-da keçiriləcək seçkilərdə fəal iştirak etməyə dəvət edib.

Seçicilərdən Tofiq Əliyev və Məlahət Rüstəmova son illər Əliabad qəsəbəsində həyata keçirilən quruculuq tədbirlərindən danışıb, bundan sonra da Yeni Azərbaycan Partiyasının təmsil etdiyi siyasi yolu dəstəklədiklərini bildiriblər.

Seçicilərlə görüşdən sonra Seymur Talıbov Əliabad qəsəbəsində yerləşən uşaq bağçasında olub, burada yaradılmış şəraitlə maraqlanıb.

**“Şərq qapısı”**

# Seçki marafonu

Parlament seçkiləri – 2020

**9 fevral 2020-ci il Azərbaycan Respublikası Milli Məclisinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə növbədənkənar seçkilər günüdür.**

***Seçkiqabağı təşviqat*** – vətəndaşların və siyasi partiyaların seçiciləri seçkilərdə iştiraka, bu və ya digər namizədlərin lehinə səs verməyə (səs verməməyə) çağıran və ya çağırmaq məqsədi daşıyan fəaliyyətidir.

**Seçkiqabağı təşviqat aparmaq hüququna aşağıdakılar malikdirlər:**

Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə deputat seçkilərində iştirak etmək üçün qeydə alınmış namizədlər;

Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə deputat seçkilərində iştirak etmək üçün namizədi qeydə alınmış siyasi partiyalar.

**Seçkiqabağı təşviqat aşağıdakı üsullarla aparıla bilər:**

• kütləvi informasiya vasitələri ilə;
• kütləvi tədbirlərin (yığıncaqlar və vətəndaşlarla görüşlər, kütləvi müzakirələr, söhbətlər və sair) keçirilməsi yolu ilə;
• çap olunmuş, audiovizual və digər təşviqat materiallarının buraxılması və yayılması yolu ilə;
• qanunla qadağan edilməyən digər üsullarla.
• Kütləvi informasiya vasitələri ilə seçkiqabağı təşviqat açıq müzakirələr, dəyirmi masalar, mətbuat konfransları, müsahibələr, çıxışlar, siyasi reklamlar, tele və radioverilişlər, videofilmlər formasında və qanunla qadağan edilməyən digər formalarda həyata keçirilir.

**Qeydə alınmış namizəd və siyasi partiya seçkiqabağı təşviqat forma və üsullarını müstəqil müəyyənləşdirir.**

**Seçkiqabağı təşviqatın aparılması, seçkiqabağı hər hansı təşviqat materiallarının yayılması aşağıdakılara qadağan edilir:**

– xarici dövlətlərə və xarici hüquqi şəxslərə;
– xarici vətəndaşlara;
– vətəndaşlığı olmayan şəxslərə;
– 18 yaşına çatmamış vətəndaşlara;
– beynəlxalq təşkilatlara və beynəlxalq ictimai hərəkatlara;
– dövlət hakimiyyəti orqanlarına və bələdiyyə qurumlarına;
– dövlət, bələdiyyə təşkilatlarına və idarələrinə;
– hərbi hissələrə;
– xeyriyyə təşkilatlarına, dini birliklərə, idarələrə və təşkilatlara;
– aşağıdakı məlumatlardan hər hansı birini göstərməyən anonim ianə köçürənlərə (vətəndaş üçün – soyadını, adını, atasının adını, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədinin seriyasını, nömrəsini, verilmə tarixini, yaşayış yerinin ünvanını, doğum tarixini, hüquqi şəxs üçün – vergi ödəyicisinin eyniləşdirmə nömrəsini, adını, qeydiyyat tarixini, bank rekvizitlərini, nizamnamə kapitalında dövlət və ya bələdiyyə payının olmasını, olduğu halda miqdarını, nizamnamə kapitalında xarici kapitalın pay miqdarını göstərməyənlərə və ya qeyri-düzgün göstərənlərə).
– üzvlərinə və digər vəzifəli şəxslərinə.

*Seçkiqabağı təşviqat üçün müəyyən edilmiş qaydalara riayət edilməsinə nəzarəti Mərkəzi Seçki Komissiyası həyata keçirir.*

• İctimai teleradio təşkilatları və ya dövri nəşrlərin redaksiyalarının təsisçiləri dövlət orqanları, təşkilatları, idarələri olduqda və ya onlar dövlət büdcəsindən maliyyələşdirilərsə, ictimai teleradio təşkilatları və dövri nəşrlərin redaksiyaları qeydə alınmış namizədlərə və siyasi partiyalara seçkiqabağı proqramlarını təbliğ etməkdən ötrü dövlət hakimiyyəti orqanlarının ayırdığı vəsait hesabına bərabər şərait yaradırlar.

• Teleradio verilişləri təşkilatları və dövri nəşrlərin redaksiyaları təşviqat fəaliyyətində tamamilə iştirak etmədikdə, formasından asılı olmayaraq hər hansı materialın nəşrindən və ya efir vaxtının verilməsindən imtina edə bilərlər.

• Kütləvi informasiya vasitələri seçkilərlə bağlı ictimai rəy sorğusunun nəticələrini dərc etdikdə rəy sorğusu keçirən təşkilatları, onun keçirilməsi vaxtını, dəqiq ifadə edilmiş sualları, sorğuda iştirak edənlərin sayını bildirməlidir.

**Seçkiqabağı təşviqat Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 2020-ci il yanvar ayının 17-də, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərdə isə 2020-ci il yanvar ayının 28-də başlanır və fevral ayının 8-i saat $8^{00}$-da dayandırılır.**

***

**Səsvermə günü və ondan əvvəlki gün hər hansı seçkiqabağı təşviqat aparmaq QADAĞANDIR.**

**Seçki məntəqəsi otaqlarının daxilində və xaricində yerləşdirilmiş seçkiqabağı təşviqat materialları səsvermə günü yığışdırılır.**

**Səsvermə gününə 24 saat qalmış ictimai rəy sorğusu nəticələrinin, seçkilərin nəticələri barədə proqnozların kütləvi informasiya vasitələrində dərc edilməsinə yol verilmir.**

**Kütləvi informasiya vasitələrində seçkiqabağı təşviqatın ödənişli əsaslarla aparılmasının ümumi şərtləri**

• Azərbaycan Respublikası Seçki Məcəlləsinin 77.1, 77.4-cü və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 64.1-ci maddəsində göstərilən teleradio verilişləri təşkilatları və dövri nəşrlərin redaksiyaları qeydə alınmış namizədlərə və namizədi qeydə alınmış siyasi partiyalara müqavilə əsasında dəyəri ödənilən efir vaxtı və dövri nəşrlərdə yer ayırmaq hüququna malikdirlər.

• Ödənişin məbləği və şərtləri müvafiq olaraq qeydə alınmış bütün namizədlər və siyasi partiyalar üçün eyni olmalıdır.

• Müvafiq teleradio verilişləri təşkilatları və dövri nəşrlərin redaksiyaları efir vaxtı verilməsinin və dövri nəşrlərdə yer ayrılmasının mümkünlüyü barədə qeydə alınmış namizədlərə və siyasi partiyalara, Mərkəzi Seçki Komissiyasına, dairə seçki komissiyasına göndərilən bildirişlə yanaşı, ödənişin məbləği barədə məlumatı da seçkilərin təyin edilməsi haqqında qərarın (sərəncamın) rəsmi dərcindən ən geci 30 gün ərzində dərc etməlidirlər.

• Özəl teleradio verilişləri təşkilatları və dövri nəşrlər seçkiqabağı təşviqat materiallarını dərc etməkdən imtina edə bilərlər. Özəl teleradio verilişləri təşkilatları və dövri nəşrlər seçkiqabağı təbliğatla bağlı materialların dərc edilməsinə məcbur edilə bilməzlər. Bu cür materiallar dərc edilirsə, dərc edilmə şərtləri bütün namizədlər və siyasi partiyalar üçün eyni olmalıdır.

*Müvafiq seçki komissiyasının sorğusu əsasında qeydə alınmış namizədlər və siyasi partiyalar ödənişli efir vaxtının və dövri nəşrdə yerin dəyərinin ödənilməsinə razılığı təsdiq edən sənədləri təqdim etməyə borcludurlar.*

**Televiziya və radioda seçkiqabağı təşviqat materiallarının verilməsinə dair tələblər**

• Qeydə alınmış namizədin və siyasi partiyanın seçkiqabağı təşviqat materiallarının verilməsi halları, işlərin və xidmətlərin reklamları ilə və ya digər proqramların verilməsi ilə dayandırmaq qadağan edilir.

• Qeydə alınmış namizədin və siyasi partiyanın seçkiqabağı təşviqat materiallarının seçki qanunvericiliyində göstərilən teleradio verilişləri təşkilatlarının kanallarında verilməsini digər teleradio proqramlarının verilməsi ilə dayandırmaq qadağandır.

• Qeydə alınmış namizədlərin və siyasi partiyaların seçkiqabağı tədbirlərinin keçirilməsi haqqında məlumatlar, bir qayda olaraq, teleradio proqramlarında məlumatların şərhsiz göstərildiyi proqramların başlanğıcında verilməlidir. Belə məlumatlara sərf edilən efir vaxtının dəyərini qeydə alınmış namizədlər və siyasi partiyalar ödəmirlər. Bu halda seçkiqabağı təşviqatın işıqlandırılmasında hər hansı bir qeydə alınmış namizədə və siyasi partiyaya üstünlük verilməməlidir.

• Seçkiqabağı təşviqata aid teleradio proqramlarının video və audio yazısı aparılır, həmin yazılar efirə çıxdığı gündən 12 ay müddətində müvafiq teleradio verilişləri təşkilatları tərəfindən qorunub saxlanılır. Teleradio verilişləri təşkilatları pulsuz və ödənişli efir vaxtının verilməsinə aid hesabat sənədlərini səsvermə günündən başlayaraq 5 il müddətində saxlamalıdırlar.

**Kütləvi tədbirlər yolu ilə seçkiqabağı təşviqatın aparılması şərtləri**

• Dövlət orqanları, bələdiyyə qurumları qeydə alınmış namizədə və siyasi partiyaya vətəndaşlarla görüşlər, açıq müzakirələr təşkil edilməsində və keçirilməsində kömək etməlidirlər.

• Qeydə alınmış namizədin və siyasi partiyanın səlahiyyətli nümayəndələrinin, onların vəkil edilmiş şəxslərinin seçicilərlə görüşlərinin keçirilməsi üçün yer ayrılması barədə verdikləri ərizələrə müvafiq icra hakimiyyəti orqanları tərəfindən Azərbaycan Respublikası qanunlarına uyğun olaraq baxılır.

• Seçki komissiyalarının sifarişi ilə dövlət və ya bələdiyyə mülkiyyətində olan, seçkiqabağı tədbirlərin keçirilməsi üçün yararlı yer (bina, otaq) qeydə alınmış namizədlərin və siyasi partiyaların səlahiyyətli nümayəndələrinin, onların vəkil edilmiş şəxslərinin seçki komissiyası ilə razılaşdırdıqları vaxtda seçicilərlə görüşlər üçün istifadəyə mülkiyyətçilər tərəfindən pulsuz verilir. Göstərilən yer (otaq, bina) qeydə alınmış namizədlərdən birinə və ya siyasi partiyaya seçkiqabağı təşviqatın aparılması üçün verilmişsə, mülkiyyətçi qeydə alınmış digər namizədə və siyasi partiyaya eyni istifadə şərtləri ilə həmin yeri (otağı, binanı) verməkdən imtina edə bilməz. Seçki komissiyaları qeydə alınmış namizədlərə və siyasi partiyalara seçkiqabağı kütləvi tədbirlər keçirmək üçün bərabər şərait yaradırlar.

• Qeydə alınmış namizədlər və siyasi partiyalar seçicilərlə görüşlər, yığıncaqlar, digər seçkiqabağı kütləvi tədbirlər keçirmək üçün, mülkiyyət formasından asılı olmayaraq, vətəndaşlara və təşkilatlara məxsus bina və otaqları müqavilə əsasında icarəyə götürmək hüququna malikdirlər.

• Dövlətin müvafiq reyestrlərinə daxil edilmiş, mədəniyyət obyektləri sayılan bina və avadanlıq təşviqat məqsədləri üçün istifadə edilə bilməz.

• Hərbi hissələrin, hərbi təşkilatların və idarələrin ərazisində seçkiqabağı təşviqat aparılması qadağandır. Qeydə alınmış namizədlər və siyasi partiya, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri hərbi hissələrin yerləşdiyi ərazinin hüdudlarında hərbi qulluqda sayılan seçicilərlə görüşlərini hərbi hissə komandirinin dairə seçki komissiyası ilə birlikdə belə görüşün keçirilməsini təyin etdikləri günə azı 3 gün qalmış müvafiq seçki dairəsi üzrə qeydə alınmış bütün namizədlərin, namizədləri qeydə alınmış bütün siyasi partiyaların mütləq dəvət edilməsi və ya onlara xəbər verilməsi şərti ilə təşkil edə bilərlər.

• Seçkiqabağı kütləvi tədbirlərin keçirilməsində təhlükəsizliyi və ictimai asayişi qanunvericiliyə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanları təmin edirlər.

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının mətbuat xidməti***

# 2 fevral – Gənclər Günü qeyd edilib

*Naxçıvan şəhərindəki "Duzdağ" otelində Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu, Gənclər və İdman Nazirliyi və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə 2 fevral – Gənclər Günü münasibətilə tədbir keçirilib.*





Tədbirdə çıxış edən Gənclər və İdman naziri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin sədri Azad Cabbarov bildirib ki, ümummilli lider Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra bütün sahələrdə tərəqqi və inkişaf müşahidə edilməyə başlayıb. Ulu öndərin təşəbbüsü ilə 1996-cı il fevralın 2-də müstəqil Azərbaycan Respublikası gənclərinin I Forumu keçirilib. Bir il sonra – 1997-ci il 1 fevral tarixdə ümummilli lider ilk forumun iştirakçılarının bir qrupu ilə görüşüb, ötən dövr ərzində ölkədə gənclərlə işin nəzərəçarpacaq dərəcədə canlanması, onların hər bir sahədə fəal iştirakının təmin edilməsi, mövcud problemlərin həlli istiqamətində qazanılan uğurlardan danışıb. Vurğulanıb ki, görkəmli dövlət xadiminin elə həmin gün imzaladığı Sərəncam ilə 2 fevral ölkəmizdə Gənclər Günü elan edilib.

Nazir bildirib ki, bu gün dövlətin apardığı gənclər siyasəti keyfiyyətcə yeni mərhələdə davam etdirilir. Ölkə başçısı cənab İlham Əliyevin həyata keçirdiyi dövlət gənclər siyasəti nəticəsində gənclərimiz cəmiyyətin inkişafında fəal sosial təbəqəyə çevrilib.

Diqqətə çatdırılıb ki, muxtar respublikamızda gənclərin sağlam, vətənpərvər ruhda formalaşması, təhsil almaları, onların intellektual səviyyələrinin yüksəldilməsi, cəmiyyətin müxtəlif sahələrində fəal iştiraklarının təmin edilməsi, asudə vaxtlarının səmərəli təşkil olunması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

Gənclər və İdman naziri vurğulayıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" Fərmanı onlara göstərilən diqqət və qayğının məntiqi davamıdır. Bu fərmana əsasən Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı" təsis edilib, müxtəlif sahələr üzrə fərqlənən istedadlı yeniyetmə və gənclərin sosial müdafiəsinin gücləndirilməsi, onların istedad və bacarıqlarının inkişaf etdirilməsi üçün əlverişli şərait yaradılıb. Qeyd olunub ki, nazirlik muxtar respublikada gənclər və idman siyasətini həyata keçirən dövlət orqanı kimi 626 tədbir keçirib ki, həmin tədbirlərdə 16 min 580 gənc iştirak edib.

Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev gənclər siyasətinin uğurla həyata keçirilməsi istiqamətində görülən tədbirlərdən ətraflı bəhs edib. Qeyd olunub ki, bu gün Azərbaycan gənci çiçəklənən, inkişaf edən bir ölkədə yaşayır. Naxçıvan gəncləri də daim diqqət və qayğı ilə əhatə olunub. Muxtar respublikada Gənclər Mərkəzi, elektron kitabxanalar, mədəniyyət evləri, ali təhsil müəssisələrində yeni tədris korpusları, orta məktəb binaları, olimpiya idman kompleksləri, idman mərkəzləri, digər çoxsaylı obyektlər tikilib və ya əsaslı təmir olunaraq gənclərin istifadəsinə verilib. Səvindirici haldır ki, Naxçıvan gənci bu gün düşünür, tədqiq edir, ölkəmizin və dünyanın ən yaxşı universitetlərində bilik sərmayəsi qazanır, müxtəlif yarış meydanlarında muxtar respublikamızı uğurla təmsil edərək qalib olur.

Tədbirdə çıxış edənlər gəncləri əlamətdar gün münasibətilə təbrik edib, yaradılan şəraitə görə Ali Məclis Sədrinə minnətdarlıqlarını bildiriblər.

Sonra ictimai həyatda və yaradıcılıq sahəsində fərqlənən istedadlı yeniyetmə və gənclər təşkilatçılar tərəfindən hədiyyələr ilə mükafatlandırılıblar. Həmin gənclər göstərilən hərtərəfli diqqət və qayğıya görə muxtar respublika rəhbərinə minnətdarlıqlarını ifadə ediblər.

2 fevral – Gənclər Günü münasibətilə təşkil olunan tədbir Naxçıvan Musiqi Kollecinin "Gənclik" instrumental ansamblı, Naxçıvan Dövlət Filarmoniyasının rəqs qrupu və gənc skripkaçının ifasında musiqi nömrələri ilə davam edib.

**Ceyhun MƏMMƏDOV**

## Gənclər Gününə həsr olunmuş möhtəşəm konsert proqramı

***Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında 2 fevral – Gənclər Günü münasibətilə Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestrinin Azərbaycan Respublikasının Xalq artisti Teymur Göyçayevin dirijorluğu ilə konserti olub.***

Tədbirdə əvvəlcə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman naziri Azad Cabbarov çıxış edərək bildirib ki, ulu öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət gənclər siyasəti muxtar respublikamızda uğurla həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərmanları ilə Gənc İstedadların “Qızıl kitabı”nın təsis edilməsi, onlara aylıq təqaüdlərin verilməsi, Gənclər Fondunun yaradılması muxtar respublikada gənclərin cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsi istiqamətində atılan mühüm addımlardır. Hazırda muxtar respublika əhalisinin 140 min nəfərdən çoxunu, yaxud 30,8 faizini gənclər təşkil edir. Onların yüksək səviyyəli təhsillə təmin olunmaları məqsədilə ardıcıl tədbirlər görülüb. Nazir diqqətə çatdırıb ki, muxtar respublika rəhbərinin müvafiq sərəncamına uyğun olaraq ali və orta ixtisas məktəblərindəki ixtisaslar ayrı-ayrı dövlət orqanlarının hamiliyinə verilib.





Tədbirdə çıxış edən Mədəniyyət naziri Natəvan Qədimova bildirib ki, muxtar respublikada mədəniyyət sahəsində görülən işlər musiqi sənətinin gənclərə əsaslı şəkildə öyrədilməsinə imkan verir. Qeyd olunub ki, 2 fevral – Gənclər Günü münasibətilə keçirilən konsert də görülən işlərin məntiqi davamıdır. Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin bədii rəhbəri Teymur Göyçayev dəfələrlə muxtar respublikada olub, konsert proqramları ilə çıxış edib, musiqi təhsili müəssisələrində ustad dərsləri keçib.

Mədəniyyət naziri çıxışının sonunda konsertin təşkilində Teymur Göyçayevə təşəkkürünü bildirib, gənclərin bayramını təbrik edib.

Sonra Teymur Göyçayevin dirijorluğu ilə konsert başlayıb. Konsertdə Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestrinin, Xor kollektivinin ifasında dünya, Azərbaycan klassik və müasir bəstəkarlarının əsərləri, həmçinin Azərbaycan xalq musiqiləri səsləndirilib. Gənclər üçün əsl bayram ərmağanı olan möhtəşəm konsert proqramı Azərbaycan Respublikasının Dövlət Himni ilə başa çatıb.

**✍ Ceyhun MƏMMƏDOV**

## İlk laborator təlimlər uğurla başa çatıb



*Naxçıvan Dövlət Universitetində muxtar respublika üzrə ümumtəhsil məktəblərinin fizika, kimya və biologiya müəllimləri üçün 5 günlük laborator təlim təşkil olunub.*

Hər ixtisasdan 30 nəfər olmaqla, ümumilikdə, 90 müəllimin iştirak etdiyi təlim uğurla başa çatıb. Bu münasibətlə keçirilən tədbirdə çıxış edən universitetin rektoru Elbrus İsayev müəllimlərin gələcək peşə bacarıqlarının formalaşmasına, orta məktəblərdə tədris etdikləri fənlərlə əlaqədar təcrübi biliklərin artırılmasına xidmət edən təlimin əhəmiyyətindən danışıb. Bildirilib ki, zəngin maddi-texniki bazaya malik olan universitetdə müxtəlif laboratoriyalarda yaradılan imkanlar bu ixtisaslarla bağlı biliklərin təcrübi surətdə mənimsənilməsinə xidmət edir. Rektor müvafiq sərəncamlara uyğun olaraq ali və orta məktəblərin birgə fəaliyyətlərinin səmərəsini, qarşılıqlı surətdə aparılan işlərin gələcək peşə hazırlığı istiqamətində əhəmiyyətini diqqətə çatdırıb. Elbrus İsayev təlim keçən müəllimlərin peşəkarlığını yüksək qiymətləndirərək təlimdə öz səy və bacarıqlarını həvəslə təqdim etdiklərinə görə təşəkkürünü bildirib.



Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov çıxışında qeyd edib ki, muxtar respublikada təhsil və ixtisaslı mütəxəssis hazırlığı dövlət siyasətinin prioritet istiqamətlərindən sayılır. Təhsilə göstərilən dövlət qayğısından, təhsilin keyfiyyətinin hər il yüksəldilməsindən bəhs edən nazir vurğulayıb ki, ümumtəhsil məktəblərində dəqiq elmlərin tədrisi səviyyəsinin yaxşılaşdırılması, müəllimlərin peşə hazırlıqlarının yüksəldilməsi, şagirdlərin bu sahə üzrə bilik və qabiliyyətlərinin artırılması diqqətdə saxlanılır.

Müəllimlərin ümumtəhsil məktəblərində yaradılan laboratoriyalardan tədris prosesində səmərəli istifadəsini təşkil etmək və onların təcrübi bacarıqlarının artırılması məqsədilə keçirilən tədbirin əhəmiyyətini diqqətə çəkən nazir yaradılan imkanları xüsusi dəyərləndirib, gələcək əməkdaşlıq məsələlərinə toxunub.

Müəllimlər onlar üçün yaradılan şəraitə görə minnətdarlıq ediblər.

Sonda təlimi uğurla başa çatdıran müəllimlərə sertifikatlar təqdim olunub.

Qeyd edək ki, təlimçilər universitetin yüksəkixtisaslı peşəkar professor-müəllim heyəti arasından seçilib. Bu sahə üzrə yüksək bacarığa malik olan peşəkar kadrlar öz laborator təcrübələrini əyani surətdə orta məktəb müəllimlərinə nümayiş etdiriblər.

**Səadət ƏLİYEVA**

*Dünən Babək Rayon Mərkəzi Xəstəxanasında uşaq və yeniyetmələrdə ilkin vərəmin profilaktikasına həsr olunmuş seminar-treninq keçirilib.*

## Seminar-treninq olub

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Tibbi yardımın təşkili şöbəsinin baş məsləhətçi-pediatrı İbrahim Ağayev tədbiri giriş sözü ilə açaraq bildirib ki, muxtar respublika ərazisində yaşayan uşaq əhalisinin sağlamlığının qorunması səhiyyə sistemində üstün istiqamətlərdən birini təşkil edir. Bu məqsədlə kütləvi dövri tibbi müayinələr aparılır və dispanserizasiya diqqətdə saxlanılır. Nazirliyin iş planına uyğun olaraq hər il yaz və payız mövsümlərində tam orta məktəblərin şagirdləri arasında profilaktika xarakteri daşıyan dərin tibbi müayinələr aparılır. Bu tədbirlər Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı”nın tələblərinə uyğun olaraq həyata keçirilir.

Sonra Ağcivər Xəstəlikləri Dispanserinin baş həkimi İlqar Rzayev çıxış edərək uşaq və yeniyetmələrdə vərəm intoksikasiyalarının yayılmasının qarşısının alınması, xəstəliyin diaqnostika və müalicəsinin yaxşılaşdırılması, xəstəlik ilə bağlı əlilliyin və ölüm hallarının azaldılması haqqında ətraflı məlumat verib. Həmçinin vərəm əleyhinə müəssisələrin maddi-texniki bazasının möhkəmləndirilməsi, xəstələrin preparatlarla davamlı təminatı, xidmətin kadr potensialının gücləndirilməsi, xəstəliyin profilaktikasında ana südünün rolu, dərmanlara davamlı vərəm xəstəliyi, onun yaranma səbəbləri və qarşısının alınması yolları, vərəmin müayinə və müalicəsi üçün görülən işlərdən də danışıb. Vərəmin müayinə və müalicəsində əhalinin məlumatlılıq səviyyəsini artırmağın, insanlar arasında maarifləndirmə işi aparmağın, xüsusən BSJ peyvəndindən sonra uşaqlarda vərəmə qarşı mübarizə tədbirlərini gücləndirməyin mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Tədbirdə dinləyiciləri maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu Azərbaycan Milli Mətbuatının 145 illiyi münasibətilə yaradıcılıq müsabiqəsi elan edir

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu Azərbaycan Milli Mətbuatının yaranmasının 145 illiyi münasibətilə 4 fevral-16 iyul tarixlərində yaradıcılıq müsabiqəsi elan edir.

**Müsabiqənin keçirilməsində məqsəd**

Müsabiqənin keçirilməsində məqsəd milli mətbuatın 145 illik yubileyi ərəfəsində Naxçıvanın qədim tarixini, müasir inkişafını, turizm potensialını, ərzaq, enerji, müdafiə və informasiya təhlükəsizliyinin təmin olunması sahəsində görülən işləri jurnalist araşdırmalarında geniş oxucu kütləsinə çatdırmaqdan və bu sahədəki yaradıcılıq fəaliyyətinə dəstək verməkdən ibarətdir.

**Müsabiqədə iştirak**

Muxtar respublikanın kütləvi informasiya vasitələrində çalışan şəxslər, eləcə də mətbuatla və teleradiolarla sıx əməkdaşlıq edən kənar müəlliflər müsabiqədə iştirak edə bilərlər.

**Müsabiqə aşağıdakı iki istiqamət üzrə keçirilir**

1. Naxçıvan Muxtar Respublikasında informasiya təhlükəsizliyinin (söz, fikir və məlumat azadlığı) təmin olunması sahəsində görülən işlərin təşviq edilməsi, ictimai və dövlət maraqlarının müdafiəsi

2. Naxçıvan Muxtar Respublikasının müasir sosial-iqtisadi inkişafının, turizm potensialının, ərzaq, enerji və müdafiə təhlükəsizliyinin təmin olunması sahəsində həyata keçirilən tədbirlərin, tarixi-mədəni irsimizin və milli dəyərlərimizin təbliği.

**Qiymətləndirmə meyarları**

- yaradıcı yanaşma, dil və üslub xüsusiyyətləri, işlərin bədii səviyyəsi və keyfiyyəti;
- mövzunun əhatə olunması, jurnalist araşdırması və əsaslandırma;
- materialın tamaşaçı, oxucu, dinləyici və izləyici üçün informasiyalılıq səviyyəsi;
- jurnalist obyektivliyi, qərəzsizliyi və məsuliyyəti;
- ictimai və dövlət maraqlarının müdafiəsi.

**Müsabiqə materiallarına qoyulan tələblər**

Müsabiqəyə təqdim olunan yazılar “Şərq qapısı”, şəhər və rayon qəzetlərinin birində dərc edilməli, yaxud “Nuhçıxan” İnformasiya Agentliyində və ya digər rəsmi qeydiyyatdan keçmiş internet media resurslarında yerləşdirilməli, teleradio materialları Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən televiziya və radiolarda yayımlanmalıdır.

Hər jurnalist yalnız bir istiqamət üzrə müsabiqəyə material təqdim edə bilər.

Müsabiqə materiallarında “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun elan etdiyi yaradıcılıq müsabiqəsinə təqdim edilir” qeydi göstərilməlidir.

**Mükafatlandırma**

Hər istiqamət üzrə 6 qalib müəyyən edilir:

*I yer – bir nəfər (1000 manat)*
*II yer – iki nəfər (500 manat)*
*III yer – üç nəfər (300 manat)*

Həmçinin bütün qaliblərə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun diplomu veriləcəkdir.

Qaliblər 22 iyul – Milli Mətbuat Günü münasibətilə keçiriləcək tədbirdə mükafatlandırılacaqlar.

**Müsabiqə materiallarının qəbul qaydaları**

*1. Yazının dərc olunduğu mətbuat orqanının (qəzet, jurnal) nömrəsi və elektron variantı (CD diskdə) – 1 nüsxə*

*2. Teleradio materialı (DVD diskdə) – 1 nüsxə*

*3. İnformasiya agentliklərində və internet media resurslarında verilən yazıların çap (A4 kağızda) və elektron variantı (CD diskdə) – 1 nüsxə*

*4. Şəxsiyyət vəsiqəsinin surəti*

Müsabiqə materialları 5 fevral 2020-ci il tarixdən 16 iyul 2020-ci il tarixə qədər rəsmi iş günləri saat $10^{00}$-dan $18^{00}$-dək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna şəxsən təqdim olunmalıdır.

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 50, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu***
***Əlaqə telefonu: (036) 544-01-11***

### İtmişdir

Darçınov Nurlan Məhərrəm oğlunun adına olan MN-0050782 seriya nömrəli zabitin şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Əsgərzadə Sarvan Əşrəf oğlunun adına 11 oktyabr 1993-cü ildə verilmiş NZ-6571888 nömrəli hərbi bilet itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 115